*UOT 37.1*

***Nazim Kazım oğlu Kazımov***
*Azərbaycan Milli Konservatoriyasının*
*nəzdində Musiqi Kollecinin direktoru,*
*Əməkdar incəsənət xadimi, professor*
*https://orcid.org/0009-0004-4233-8402*
*https://doi.org/10.69682/arti.2025.92(3).20-26*
*E-mail: nazimkazimov1313@gmail.com*

# AZƏRBAYCANDA MUSİQİ TƏHSİLİNİN FORMALAŞMASINDA ÜZEYİR HACIBƏYLİNİN TARİXİ ROLU

***Nazim Kazim Kazimov***
*director of the Music College under the*
*Azerbaijan National Conservatori*
*Honored artist, professor*

# THE HISTORICAL ROLE OF UZEYIR HAJIBAYLY IN THE FORMATION OF MUSIC EDUCATION IN AZERBAIJAN

***Назим Кязим оглы Кязимов***
*директор Музыкального Колледжа*
*при Азербайджанской Национальной Консерватории,*
*заслуженный деятель искусства, профессор*

# ИСТОРИЧЕСКАЯ РОЛЬ УЗЕИРА ГАДЖИБЕЙЛИ В СТАНОВЛЕНИИ МУЗЫКАЛЬНОГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ

**Xülasə.** Təqdim olunan məqalədə dahi bəstəkar, musiqişünas və ictimai xadim Üzeyir Hacıbəylinin Azərbaycanda musiqi mədəniyyətinin və musiqi təhsilinin formalaşmasında müstəsna xidmətləri vurğulanır. Onun məktəb, təhsil və ana dilinin tədrisi məsələləri, Avropa təhsil sistemi nümunəsi əsasında Azərbaycan təhsilinin müasirləşdirilməsi ilə bağlı dəyərli fikirləri açıqlanır. Üzeyir bəyin Şərq və Qərb musiqi ənənələrinin sintezi əsasında milli musiqi məktəbinin əsasını qoyması, Azərbaycan musiqisinin zəngin və müstəqil irs kimi meydana çıxması onun müxtəlif məqalələrinin tədqiqi əsasında ümumiləşdirilmiş şəkildə təqdim olunur.
***Açar sözlər:*** *Üzeyir Hacıbəyli, musiqi təhsili, Qori seminariyası, Asəf Zeynallı, musiqi kolleci*

**Abstract.** The presented article highlights the exceptional services of the great composer, musicologist and public figure Uzeyir Hajibayly in the formation of musical culture and music education in Azerbaijan. His valuable ideas on the issues of school, education and teaching the native language, and the modernization of Azerbaijani education based on the example of the European education system are disclosed. The laying of the foundation of the national music school based on the synthesis of Eastern and Western musical traditions by Uzeyir bay, and the emergence of Azerbaijani music as a rich and independent heritage are presented in a generalized manner based on the study of his various articles.
***Keywords:*** *Uzeyir Hajibayly, music education, Gori seminary, Asef Zeynalli, music college*

**Аннотация**. В представленной статье подчеркивается исключительный вклад гениального композитора, музыковеда и общественного деятеля Узеира Гаджибейли в формирование музыкальной культуры и музыкального образования в Азербайджане. Раскрыты его ценные идеи по вопросам школы, образования, преподавания родного языка, а также модернизации азербайджанского образования на примере европейской системы образования. В обобщенном виде на основе изучения его различных статей представлено заложение Узеир беком основ национальной музыкальной школы, основанной на синтезе восточных и западных музыкальных традиций, становление азербайджанской музыки как богатого и самостоятельного наследия.
***Ключевые слова:*** *Узеир Гаджибейли, музыкальное образование, Горийская семинария, Асаф Зейналлы, музыкальный колледж*

"*Bəşəriyyət tarixində elə şəxslər var ki, onlar özləri üçün anadan olmayıblar, bəlkə bütün xalqa və hətta ümum insaniyyətə xeyir gətirmək və tərəqqisinə səbəb olmaq üçün yaranıblar. Bu cür adamlar nəinki sağlığında, bəlkə öləndən sonra da camaata mənfəət verirlər*". Dahi Üzeyir bəyin keçən əsrin əvvəllərində (1910-cu ildə) özünün nəşr etdirdiyi "Həqiqət" qəzetində yazdığı bu sözlər məhz onun özünə şamil edilməlidir. Zamanında milli kimliyin qorunması və milli mədəniyyətin formalaşması üçün apardığı mübarizə, xalqının tərəqqisi üçün gördüyü işlərdən bu gün də faydalandığımız dahi şəxsiyyət Üzeyir Hacıbəylinin 140 illik yubileyi ərəfəsindəyik. Bu sənətkarın irsi bizə yalnız musiqi sahəsində deyil, həm də milli özünüdərk və mədəni irsimizi daha dərin başa düşməyimiz üçün də dəyərli bir xəzinədir. Üzeyir bəyin yaradıcı təxəyyülü, iradəsi, enerjisi şifahi musiqi ənənələri ilə professional musiqi arasında səddi aradan götürüb, Şərq və Qərb musiqisi arasında körpü salaraq mədəniyyətimizin inkişaf konsepsiyasını yaratmağa yönəlmişdi. Özünün dediyi kimi əsrlər boyu inkişaf edərək dünya tarixinə dahilər bəxş edən avropa musiqisini öyrənmək, elmi, nəzəri və əməli surətdə musiqimizin tərəqqisinə, ali zirvəyə ucalmasına çalışmaq lazımdır.

Milli bəstəkarlıq məktəbinin, yeni musiqi janrlarının, dövlət himninin, musiqi təhsili sisteminin yaradıcısı kimi bir çox ilklərə imza ataraq Üzeyir Hacıbəyli Azərbaycan mədəniyyəti tarixində qızıl əsrin başlanğıcını qoydu. Böyük istedada malik tarixi şəxsiyyət, bəstəkar, dramaturq, publisist, pedaqoq, musiqişünas-alim, tərcüməçi kimi yaradıcı fəaliyyətinin bütün sahələrində dahiyanə musiqi zəkası, iti zehni, fövqəladə intuisiya qabiliyyəti ilə Azərbaycan milli mədəniyyətinin parlaq təmsilçisi oldu Üzeyir bəy. Onun dünya musiqisi tarixinə bəxş etdiyi kitabın səhifələri təkcə musiqi yaradıcılığının deyil, həm də insan ruhunun dərinliklərinə enən bir səyahəti əks etdirir. Bu səhifələr, müxtəlif mədəniyyətlərin və dövrlərin musiqisinin qarşılıqlı təsirini, hər bir melodiyanın arxasında yatan hekayələri və duyğuları açmaq üçün bir pəncərədir. Üzeyir bəy yalnız bir musiqiçi deyil, eyni zamanda musiqinin zamanla necə inkişaf etdiyini, nəyi ifadə etdiyini və insan həyatında necə bir rol oynadığını anlamağa çalışan bir araşdırıcı kimi fəaliyyət göstərmişdir. Novator bəstəkarımızın açdığı kitabın növbəti səhifələrinə yazılan hər bir musiqidə keçmişin izi, hər bir ritmdə işıqlı gələcəyin ümidi vardır.

Üzeyir Hacıbəyli millətin tərəqqisi üçün elm, təhsil məsələlərinə çox diqqət yetirirdi. Onun məktəb, maarif və ana dilinin tədrisi məsələləri barədə fikirləri pedaqogika elminin incəliklərinə nə qədər dərindən bağlı olduğunu göstərir. Üzeyir Hacıbəyli xalqın tərəqqisinin yolunu təhsildə görürdü. Onun fikrincə, təhsil xalqın intellektual və mənəvi inkişafının əsasıdır. Eyni zamanda tədris ana dilində aparılmalıdır ki, şagirdlər daha yaxşı başa düşsün və milli kimliyi dərk etsinlər. Üzeyir bəy Qərb maarifçilik ideyalarına açıq idi və Avropa təhsil sistemini nümunə göstərərək Azərbaycan təhsilinin modernləşdirilməsini zəruri sayırdı. O, ənənəvi dini təhsilin yanında dünyəvi elmlərin (riyaziyyat, tarix, təbiət elmləri və s.) tədrisini vacib hesab edirdi. Şagirdlərə sərbəst düşünmək və tənqidi yanaşmaq bacarığının aşılanmasının tərəfdarı idi.

Üzeyir bəy millətin maarifpərvər gələcəyinin təminatçısı kimi müəllim şəxsiyyətinə xüsusi önəm verirdi. "Müəllimlər ictimaina dair" məqaləsində o yazırdı: *"Millətimizin müəllimlərdən savayı hansı ünsürü vardır ki, daim camaat içində olub, onlar ilə bilavasitə əlaqədə olsunlar? Və müəllimlərdən savayı kimimiz vardır ki, camaat içində yaşayıb da, onların həm özlərinin, həm də uşaqlarının qeydinə qalsın?"* [2, s.57].

Beləliklə, Üzeyir bəy xalqı cəhalətdən qurtarmaq üçün uşaqlarla bərabər onların valideynlərini də təlim etməyi ön plana çəkir və bu işdə müəllimin öhdəsinə düşən vəzifələri tənzimləməyə çalışırdı. Bu məsələdə şəhər müəllimlərindən daha çox kənd müəllimlərinin daha artıq çalışmalı olduqlarını vurğulayırdı: *"Çünki şəhər elə bir yerdir ki, orada müəllimlərdən savayı ziyalı adamlar da vardır. Bu ziyalılar şəhər əhlini içində olub, öz müəllimləri ilə əhaliyə bir qədər də olsa, hüsni-təsir edirlər. Kənd isə, ələlxüsus müsəlman kəndi bu yerdədir ki, orada baxırsan ki, müəllimdən savayı özgə elmli adam yoxdur"* [2, s. 58]. Üzeyir bəy kənd müəllimini cəhalət guşəsi kimi qaranlıq bir yerdə işığa bənzədirdi.

Onun fikrincə, xalqın cəhalətdən azad olması, tərəqqisi üçün ilk növbədə müəllimlərin savadlı, vətənini sevən və fədakar olması vacib idi. Bu, sadəcə bir peşə borcundan deyil, milli vəzifə və vətənpərvərlik hissindən qaynaqlanır-

dı. Üzeyir bəy təhsilin və müəllimin milli oyanış və tərəqqidə əsas rol oynadığını yaxşı anlayırdı. *"Kənd camaatı görsə ki, içlərində olan müəllimlər onların dərdgöstərən və dərmanbilənləridir, şübhəsiszdir ki, o müəllimlərə məhəbbət və etibar ilə baxıb, kəmali-məsərrət ilə övladlarını onların təhti-tərbiyəsinə və təliminə verərlər"* [2, s. 59]. Üzeyir bəy qeyd edirdi ki, bütün Qafqazda müəllimlər arasında yalnız Bakı müəllimləri öz şagirdlərinə millətin gələcəyi kimi baxaraq öz vəzifələrini doğru-dürüst yerinə yetirir. O, müəllimin cəmiyyətdə nüfuzunun yüksəldilməsini və müəllim peşəsinə dərin hörmətin formalaşdırılmasını zəruri sayırdı.

Üzeyir Hacıbəyli dövrünün aparıcı mətbuat orqanlarında (məsələn, "İqbal", "Kaspi", "Açıq söz") maarifləndirici məqalələrlə çıxış edərək cəmiyyətin təhsilə münasibətinin dəyişməsinə təsir göstərmiş, kütləvi savadsızlığın aradan qaldırılması üçün ictimai dəstəyi səfərbər etməyə çalışmışdır. O, müəllimləri tədrisdə fəaliyyətləri ilə bərabər dövri mətbuatda da öz maarifləndirici yazıları ilə çıxış etməyə çağırırdı: *"Əhalimizin övladı müəllimlərimizin bilavasitə ağızdan söylədiyi sözlərə möhtac olduqları kimi, övladların ataları da müəllimlərin onlara dair söyləyəcək olduğu sözlərə möhtacdır. Bu sözləri də ancaq mətbuat vasitəsilə söyləmək mümkündür"* [2, s. 162]. Üzeyir bəyin fikrincə müəllimlər sadəcə bilik ötürən deyil, həm də ictimai maarifləndirici, fikir lideri olmalıdırlar. Onlar istər təlim və tədrisə dair, istərsə də digər ictimai-mədəni məsələlərə dair öz fikirlərini mətbuat vasitəsilə bölüşməli, mövcud problemlərin həlli yollarını cəmiyyətə çatdırmalıdırlar. Xüsusilə, kənd məktəblərində çalışan müəllimlər yerli əhalinin gündəlik həyatında qarşılaşdığı çətinlikləri, sosial və iqtisadi ehtiyaclarını gündəmə gətirməli, mətbuatda işıqlandırmaqla cəmiyyətin diqqətini bu problemlərə yönəltməlidirlər. Beləliklə, müəllimlər kənddə yaşayan insanların səsini cəmiyyətə çatdırır, yerli problemlər daha geniş müstəvidə müzakirəyə çıxarılır, sosial ədalət və inkişaf üçün təzyiq mexanizmi formalaşır, müəllim nüfuzu və ictimai rolu güclənir.

Üzeyir Hacıbəylinin ilk pedaqoji fəaliyyəti Qori seminariyasının son sinfində oxuyarkən bu təhsil müəssisəsinin nəzdindəki gürcü ibtidai məktəbində gürcü uşaqları ilə apardığı sınaq dərsləri olmuşdur. Rus dilini tədris edən Üzeyir qarşılıqlı olaraq gürcü dilini də sərbəst mənimsəyir. Məktəblərdə ana dilinin tədrisi üçün müəllim problemi onu çox narahat edir və o, Müəllimlər Qurultayı Qafqaz maarif müdirinə Qori seminariyasında türk dilinin tədris olunması ilə bağlı müraciət edir. Seminariyanı bitirdikdən sonra Hadrut kənd məktəbində müəllim kimi çalışır, dərsdən kənar vaxtlarda uşaqlarla musiqi ilə məşğul olur. 1905-ci ildə erməni millətçilərinin ona qarşı sui-qəsd planından xəbər tutan sadə kənd camaatı Üzeyir bəyi gecə ikən kənddən çıxarır. Bir qədər sonra Üzeyir bəy "İrşad" qəzetində nəşr etdirdiyi "Şuşa qırğınına dair" məqaləsində yazır: *"Namərd düşməndən üç-dörd qat az olan Şuşa müsəlman kişiləri hamını heyrətə qoyacaq bir cəsarət ilə axır nəfəsədək qoymazlar ki, insaniyyətdən uzaq olan düşmən heyvaniyyət qələbəsi altında cürət edib pərdeyi-namusu məcrasına əl uzatsın"*.

İti qələmi, cəsarətli vətənpərvər mövqeyi ilə jurnalist kimi çar Rusiyasının daxili siyasətini, müsəlman millətinə qarşı qərəzli mövqeyini işıqlandıran Üzeyir pedaqoji fəaliyyətini davam etdirərək rus-tatar məktəbində, Bibiheybət məktəbində, "Səadət" məktəbində Azərbaycan və rus dillərini, riyaziyyat fənnini tədris edir. Müəllimlik işinə olduqca məsuliyyətlə yanaşan, bu işdə yeni ideyaları tətbiq edərək yeni dərsliklərin – dil və hesab dərsliklərinin üzərində işləyir, təhsil həyatında da əvəzsiz bir müəllim və rəhbər kimi tanınır. Üzeyir Hacıbəylinin fikirləri və fəaliyyəti Azərbaycan təhsil sisteminin dünyəviləşməsi, milliləşməsi və modernləşməsinə ciddi təsir göstərmişdir.

O dövrdə Bakıda fəaliyyət göstərən "Rus İmperator Musiqi Cəmiyyətinin Bakı Şöbəsi"nin Musiqi siniflərində bir nəfər belə azərbaycanlı uşağının təhsil almaması bir çox maarifçi ziyalılar kimi Üzeyir bəyi də çox narahat edirdi: "*Bakı hələ çar hökumətinin quberniya şəhərlərindən biri olan zamanlarda burada "Rus İmperator Musiqi Cəmiyyəti" adlanan bir müəssiseyi – musiqiyyənin şöbəsi olmaq üzrə bir musiqi məktəbi mövcud idi. Bu məktəb Bakıda iyirmi beş sənəlik uzun bir müddət ömür sürüb, müntəzəm bir surətdə yaşadığı halda, qapılarını musiqi təhsili arzusunda bulunan türk balaları üçün daim bağlı saxladı. Bu qədər uzun bir zaman içində bu məktəbdə bir nəfər belə yerli türklərdən oxuyan və məktəbi bitirən olmadı. Məktəbin mövcud olub-olmaması haqqında yerli türklərin xəbəri belə yox idi"* [2, s. 178].

Ü. Hacıbəyli Rus İmperator Musiqi Cəmiyyətinin Bakı şöbəsinin fəaliyyəti zamanı yerli azərbaycanlı və türk uşaqlarının bu təhsildən kənarda qalmasına diqqət çəkir. Məktəb rəsmi olaraq fəaliyyət göstərsə də, yerli əhalinin nəinki bu məktəbdə təhsil almaq imkanı olmayıb, hətta onların bu cür bir musiqi məktəbinin mövcudluğundan belə xəbəri olmayıb. Bu, həmin dövrün sosial ədalətsizliklərini və mədəni ayrı-seçkiliyi açıq şəkildə əks etdirir. Üzeyir bəyin narahatlığı isə onun maarifçilik fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edirdi – milli musiqi təhsilinin təşkili və azərbaycanlı balalarının bu təhsilə cəlb olunması: *"Musiqi məktəbləri dəxi qapılarını olduqca gen açıb təhsili-sənət həsrətində olanları dəstə-dəstə içərisinə qəbul etdi. Əvvəllər yüz əllidən artıq şagirdi olmayan Bakı musiqi məktəbinin dəxi bu səfərki şagirdləri ədədcə dörd-beş mini təcavüz etməyə başladı. Fəqət əcayib bir hal! Bu dörd-beş min şagirdin qismi-əzəmi türklərdən olmaq lazım gəldiyi halda, bunların ədədi biləks on beş nəfərdən artıq ola ya ola, ya olmaya idi"* [2, s. 178]. Çıxış yolunu isə o, ixtisaslaşdırılmış tədris müəssisələrinin yaradılması, xüsusi məktəblər, texnikumların açılması və Azərbaycanın müxtəlif bölgələrindən istedadlı gənclərin bu məktəblərə cəlb olunmasında görürdü. Təhsil imkanlarının təkcə mərkəzi şəhərlərdə deyil, regionlarda da əlçatan olması əsas vəzifələrdən idi. Bu yanaşma həm maarifçiliyin, həm də sosial ədalətin gücləndirilməsi baxımından mühüm idi. *"Maarif meydanında musiqi sənəti də mühüm cəbhələrdən biridir ki, orasını dəxi möhkəm saxlamaqla cəhalət düşməninə qarşı yeni bir qüvvət kəsb etmiş oluruq"* [2, s. 180].

Üzeyir Hacıbəylinin cəmiyyətin maariflənməsində atdığı cəsarətli addımlardan biri də qadınların təhsil almasına şərait yaratması idi. Onun fikrincə, cəmiyyətin tərəqqisi yalnız kişilərin deyil, qadınların da savadlı və maarifli olmasından keçir. Üzeyir bəy qadınların maariflənməsini həm milli inkişaf, həm də ailə və cəmiyyətin mədəni səviyyəsinin yüksəldilməsi baxımından zəruri hesab edirdi. Onun təşəbbüsü ilə bir çox maarifləndirici layihələr həyata keçirilmiş, qadınların təhsil ala biləcəyi mühitlərin – mədrəsə və məktəblərin yaradılması üçün işlər görülmüşdür. Üzeyir bəy Azərbaycan musiqili səhnə əsərlərində qadın obrazlarının kişilər tərəfindən ifa olunmasına ürək ağrısı ilə yanaşır və qadın hüquqları, bərabər təhsil imkanlarına yol açıb, öz əsərlərində qadın ifaçılarını görmək arzusu ilə yaşayırdı. Azərbaycanda ilk qadın vokal ifaçısı Şövkət Məmmədovanın İtaliyada təhsilini davam etdirməsi üçün maddi vəsaitə ehtiyacı var idi. Üzeyir bəyin təklifi ilə o, səhnəyə çıxıb bir neçə nömrə ifa etməli və öncədən tamaşası keçirilmiş operettadan yığılan vəsaitlə Milanda sonuncu təhsil ilini başa vurmalı idi. Nəhayət, 1912-ci il aprelin 3-də Tağıyev teatrında Üzeyir Hacıbəylinin "Ər və arvad" operettası səhnəyə qoyulur. Tamaşadan sonra Şövkət Məmmədova səhnəyə çıxaraq C. Rossininin "Sevilya bərbəri" operasından Rozinanın ariyasını ifa edir. Ölümlə təhdid olunmasına baxmayaraq Üzeyir bəy Şövkət xanımla birgə bu tarixi missiyanı – Azərbaycan səhnəsində ilk dəfə olaraq qadın ifaçının çıxışını həyata keçirirlər.

Üzeyir Hacıbəyli qadın təhsilinin yalnız bir hüquq deyil, həm də zərurət olduğunu düşünürdü. Onun bu məsələdəki qabaqcıl və humanist mövqeyi Azərbaycan cəmiyyətində qadınların maariflənməsi və hüquqlarının genişlənməsində mühüm rol oynamışdır.

Üzeyir Hacıbəyli öz yazdığı əsərlərdə "Leyli və Məcnun" operası, "Arşın mal alan" operettasında qız övladlarına təhsil vermək əvəzinə, onları kor-koranə ailə həyatı qurmağa sövq edən valideynlərin cahil hərəkətlərinə qarşı çıxır. "Şah Abbas və Xurşid Banu" operası haqqında isə bəstəkar qadın dərrakəsini yüksək qiymətləndirərək bu operanın odunçuluq ilə yaşayan adi kəndli qızının ağıl və dərrakəsinin şahlarınkından daha artıq olduğunu göstərən ibrətamiz bir əsər olduğunu qeyd edir.

Üzeyir Hacıbəylinin musiqi təhsili sahəsindəki fəaliyyəti maarifçilik ideyalarının tərkib hissəsi olmaqla, Azərbaycanın mədəni dirçəlişində mühüm mərhələ təşkil etmişdir. O, musiqi vasitəsilə xalqı maarifləndirmək, milli özünüdərk hissini gücləndirmək və dünya mədəniyyətinə inteqrasiya etmək kimi böyük bir missiyanı həyata keçirmişdir.

Üzeyir Hacıbəyli bütün həyatı boyu Azərbaycan musiqisinin inkişafı və musiqi təhsilinin təşkili sahəsində yorulmadan çalışmış, bu sahədə irəli sürülən qərəzli fikirlərə qarşı ardıcıl və prinsipial mövqe nümayiş etdirmişdir. O, Şərq və Qərb musiqi ənənələrinin sintezinə əsaslanan milli musiqi məktəbinin təməlini qoyaraq, Azər-

baycan musiqisinin zəngin və müstəqil bir irsə sahib olduğunu sübut etmişdir.

O dövrdə Respublikanın maarif komissarı olmuş Mustafa Quliyevin Şərq musiqi təhsilinə qarşı çıxaraq Avropa musiqi təhsilinin tərəfdarı olması, eyni zamanda "Tar" alətini tədris olunmasına qarşı çıxması Üzeyir bəyi çox hiddətləndirir: *"Musiqi təhsili işində Şərq musiqisinə qarşı laqeyd qalarsaq, öz mədəni vəzifəmizi kamalınca ifa etməmiş olarıq. Tar isə Şərq musiqisi təhsilini genişləndirə bilən alətdən ən qiymətlisi, ən mühümüdür. Yoldaş Quliyev zənn etməsin ki, tar təhsilini konservatoriya proqramına daxil etməklə gələcək üçün sazandalar hazırlanması nəzərdə tutulur. Musiqi məktəbi tara yalnız elmi cəhətdən yanaşır və onu Şərq musiqisinin əsası olan muğamatın kəşf və şərhi üçün elmi bir alət sifəti ilə öz proqramına daxil edir"* [2, s. 203].

XX əsrin əvvəllərində bəzi mühafizəkar qüvvələr Şərq musiqisinin inkişaf perspektivlərini az qiymətləndirir, onu Avropa klassik musiqisi ilə müqayisədə "geridə qalmış" kimi təqdim edirdilər. Lakin Üzeyir Hacıbəyli bu fikirlərlə razılaşmayaraq, Azərbaycan muğamının yüksək estetik və nəzəri dəyərə malik olduğunu elmi və praktik yollarla sübut etmişdir. O, "Azərbaycan xalq musiqisinin əsasları" adlı kitabında Azərbaycan xalq musiqisinin məqam sisteminin təsnifatını vermiş, Azərbaycan məqamlarının səs qatarının qurulma qaydalarını, bu qanunlar əsasında melodiya bəstələməyin elmi-nəzəri cəhətdən yollarını açıqlamışdır. *"....mən xalq musiqisini əsaslı surətdə öyrənməyincə böyük əsərlər yazmağa tələsməmişəm. Öz işlərim məni bu qənaətə gətirmişdir ki, Azərbaycan xalq musiqisi bir sıra tarixi səbəblərə görə xüsusi bir sistemə malikdir və tamamilə formalaşmış müstəqil bir incəsənətdir"*[2, s. 222]. Üzeyir Hacıbəyli Azərbaycan xalq musiqisindən nümunələrlə Azərbaycan məqamları səsqatarlarının ciddi konsekvent (kvarta quruluşu, kvinta quruluşu, kiçik və böyük sekstalar quruluşu) bir qanun üzrə qurulub mütənasib sistemdən ibarət olduğunu isbat etmişdir.

Beləliklə, Üzeyir Hacıbəyli "Azərbaycan xalq musiqisinin əsasları" adlı kitabında Azərbaycan xalq musiqisinin – xüsusilə muğamın – strukturunu, məqam sistemini, intonasiya və ritmik xüsusiyyətlərini elmi əsaslarla araşdırmış, xalq musiqisinin professional musiqi sistemi ilə vəhdətini izah etmişdir. Bu kitab Şərq musiqisinin – milli musiqi sistemimizin Avropa musiqi nəzəriyyəsi çərçivəsində elmi əsaslarla təhlil və təsnif edilməsi baxımından ilk addım olmuş, musiqi təhsili müəssisələrində milli musiqinin tədrisinin nəzəri çərçivəsini təmin etmişdir. Üzeyir bəyin məqsədi xalq musiqisini qorumaqla yanaşı onu professional musiqi dili ilə birləşdirərək inkişaf etdirmək idi. Bu yanaşma, həm xalq musiqisinin akademik sahəyə inteqrasiyasını təmin etmiş, həm də təhsildə tələbələrə muğam sistemini anlamaqda və milli musiqi formasında bəstəkarlıq bacarıqlarını inkişaf etdirməkdə yol göstərmişdir.

Üzeyir Hacıbəyli tərəfindən önəmli hesab olunaraq tədris planına daxil edilmiş "Azərbaycan xalq musiqisinin əsasları" fənni bu günə kimi həm orta ixtisas, həm də ali musiqi məktəblərində tədris edilir. "Azərbaycan xalq musiqisinin əsasları" əsəri Azərbaycan musiqi təhsilində təməl daşlarından biridir. O, həm nəzəri dərinliyi, həm də praktiki istiqamətilə musiqi təhsili sistemimizin formalaşmasında və inkişafında mühüm rol oynamışdır. Bu kitab yalnız keçmişin deyil, bu günün və gələcəyin də elmi və tədris mənbəyi olaraq qalır.

Üzeyir Hacıbəyli bəzi qüvvələrin Avropa musiqi sisteminin Şərqə yad və uyğun olmaması fikirlərinə qarşı çıxmış, əksinə, Avropa musiqisinin metodlarını öyrənərək milli musiqinin zənginləşməsinə xidmət edə biləcəyini göstərmişdir. *"Mən şəxsən dünya musiqi əlifbasının Azərbaycan musiqi xüsusiyyətlərini verə bilmədiyini isbat etməyə çalışan bəzi musiqişünasların əsassız qeydlərini etinasız buraxıram"* [2, s. 222]. "Azərbaycan türklərinin musiqisi haqqında" məqaləsində Üzeyir bəy 12 yarım pərdəli Avropa musiqi sistemində iki növ məqam: major və minor qammaları olduğunu göstərir. Azərbaycan musiqisində isə Rast, Segah, Çahargah, Şur (Hicaz, Bayatı-Kürd), Bayatı-Şiraz (Müxalif), Şüştər, Humayun məqamlarını tam olaraq qeyd edir və bu məqamların zənginliyini, ifadə imkanlarının genişliyini vurğulayır [3, s. 25]. Üzeyir bəyin fikrincə, Avropa musiqisinin nəzəri metodları milli musiqimizin elmi şəkildə öyrənilməsi və inkişafı üçün əhəmiyyətlidir. O, Şərq və Qərb musiqi sistemlərini bir-birinə zidd qoymaq əvəzinə, onların bir-birini tamamladığını və qarşılıqlı zənginləşdirə biləcəyini sübut etmişdir.

Onun Şərqdə ilk opera sayılan "Leyli və Məcnun" əsəri həm də bir növ bu qərəzli yanaş-

malara cavab idi: "*Mən xalq yaradıcılığının klassik nümunələri olan muğamlardan musiqi materialı kimi istifadə etməyi nəzərdə tutmuşdum. Vəzifəm ancaq Füzuli poemasının sözlərinə forma və məzmunca zəngin, rəngarəng muğamlardan musiqi seçmək, hadisələrin dramatik planını işləyib hazırlamaq idi"* [2, s. 210]. Bu əsərdə həm Şərq muğamı, həm də Avropa operasının formaları ustalıqla birləşdirilmişdir. Bu cəsarətli addım, təkcə musiqi sənətində deyil, həm də ictimai-mədəni mühitdə böyük rezonans doğurdu.

Üzeyir Hacıbəyli özünün publisistik yazılarında da bu məsələyə toxunmuş, milli musiqinin elmi əsaslarla inkişaf etdirilməsinin, savadlı və peşəkar musiqiçilərin yetişdirilməsinin zəruriliyini dönə-dönə vurğulamışdır. Nəticə etibarilə, Üzeyir Hacıbəyli musiqi ictimaiyyətində mövcud olan qərəzli yanaşmaların əksinə olaraq, Azərbaycan musiqisinin özünəməxsus dəyərlərə malik olduğunu, həm Şərq, həm də Qərb musiqi ənənələri ilə yanaşı dayana biləcəyini sübut edən görkəmli bir şəxsiyyət olmuşdur. Onun bu sahədəki fəaliyyəti nəticəsində Azərbaycan musiqi təhsili sistemli mərhələli şəkildə formalaşmış, yeni-yeni musiqiçilər nəsli yetişmişdir. Onun fəaliyyəti təkcə dövrünün deyil, bu günün də musiqi təhsili və mədəni irsi üçün örnəkdir.

1916-ci ildə Üzeyir bəy öz yaradıcı həmkarları ilə birlikdə Moskva konservatoriyasının məzunu, pianoçu A.N. Yermolayevanın açdığı musiqi məktəbinin Dövlət orta ixtisas musiqi məktəbinə çevrilməsinə nail olur. Azərbaycan musiqi təhsili quruculuğunda növbəti mərhələ ali musiqi məktəbinin – konservatoriyanın yaradılması oldu. 1922-ci ildən etibarən Azərbaycan Dövlət Konservatoriyasının "Şərq" şöbəsi Ü. Hacıbəylinin rəhbərliyi ilə müstəqil təhsil müəssisəsi kimi fəaliyyətə başlayır. Milli musiqiçi kadrların hazırlanması sahəsində mühüm rol oynayan bu təhsil ocağı əvvəlcə Türk musiqi məktəbi, 1924 -cü ildən isə musiqiçi kadrların hazırlanmasında əldə olunan uğurların sayəsində orta ixtisas musiqi təhsili müəssisəsi hüququnu qazanaraq Türk musiqi texnikumu adlandırılır. Qəbul olunan tələbə heyətinin 80 faizi Azərbaycan millətinin nümayəndələri idi. Həmin dövrün müəllimləri Kövkəb Səfərəliyeva, Reqina İvanovna Siroviçin sözləri ilə desək, texnikum azərbaycanlıların musiqi təhsili orbitinə kütləvi şəkildə cəlb olunmasına nail oldu.

Ü. Hacıbəyli tədris prosesinin daha səmərəli keçirilməsi üçün yeni proqramların, o cümlədən ilk muğam proqramının hazırlanmasına, milli musiqi alətləri üçün notlu tədrisin əsasının qoyulmasına, nəzəri fənlərin, xor dərslərinin keçirilməsinə nail olur. Texnikumun ilk məzunları arasında Səid Rüstəmov, Asəf Zeynallı, Əfrasiyab Bədəlbəyli, Xurşid Ağayeva, Əşrəf Həsənov, Tamara Rəhimova, Məmməd Nəsirbəyov, Nigar Usubova, Ələkbər Daşdəmirov, Qılman Salahov kimi tanınmış musiqi xadimləri var idi. Onların bir çoxu sonradan bu təhsil ocağının müxtəlif şöbələrində fəaliyyət göstərərək milli musiqiçi kadrların hazırlanmasında mühüm rol oynayır.

Üzeyir bəy gənc musiqiçilərin yetişməsində, onların sənət dünyasında öz yerini tapmasında mühüm rol oynamışdır. Onun musiqi təhsili sistemində qoyduğu ənənələr onun tələbələri və davamçıları tərəfindən bu gün də yaşadılır. Azərbaycan musiqi mədəniyyətində, hər bir musiqi xadiminin həyat yolunda bilavasitə Üzeyir Hacıbəylinin əvəzolunmaz rolu olmuşdur. Müəllimlərim olmuş Səid Rüstəmov, Süleyman Ələsgərovun məhz Üzeyir bəydən dərs alaraq, mənimsədikləri bilgini mənə də aşılamaqları qürurverici hisdir.

Üzeyir Hacıbəyli vətənini, millətini sevərək öz fəaliyyətində azərbaycançılıq ideologiyasına əsaslanmışdır. Onun təşəbbüsü ilə 1933-cü ildə Azərbaycan Dövlət Konservatoriyasına həyatdan vaxtsız köçmüş, gənc istedadlı bəstəkar Asəf Zeynallının adının verilməsi o dövr üçün ən doğru yol idi. Əgər bu addım atılmasaydı, zamanın siyasi və ideoloji şərtləri nəzərə alınaraq konservatoriya məşhur rus bəstəkarlarından birinin adını daşıyacaqdı. Gənc yaşında milli musiqiyə töhfələr verən bu istedadlı bəstəkarın – Asəf Zeynallının adının yaşadılması Azərbaycan mədəniyyətinin və milli düşüncəsinin formalaşmasında mühüm rol oynayan şəxsiyyətin – Üzeyir Hacıbəylinin dahiliyini bir daha sübut etdi. Onun uzaqgörənliyi nəticəsində konservatoriya yerli musiqi mədəniyyətinə xidmət edən bir təhsil ocağı kimi mövqeyini qorudu.

Üzeyir Hacıbəylinin pedaqoji fəaliyyəti, sənətə olan dərin bağlılığı, milli musiqi mədəniyyətini daha da irəlilətmək və bu sahədə yeni nəsil yetişdirmək məqsədini daşıyırdı. Musiqi nəzəriyyəsi və onun tətbiqi ilə bağlı irəli sürdüyü fikirlər Azərbaycan musiqi təhsilinin inkişa-

fında böyük rol oynamışdır. 1940/50-ci illərdə texnikumda müəllim və tələbələrdən ibarət xalq çalğı alətləri orkestri və ansamblı, xor, kamera kollektivləri, muğam üçlüyü yaradılır. Müəllim və tələbə heyətinin birgə fəaliyyəti nəticəsində Respublikada musiqi sənəti tərəqqi dövrünü yaşayır. Zəngin ənənələrə malik Musiqi texnikumu bu ənənələri yeni dövrün tələblərinə uyğun olaraq davam etdirir: keyfiyyətli kadrlar yetişdirir, tələbkarlığı artırır, istedadlı gənclərin peşəkar incəsənətdə təhsillərini davam etdirmələri üçün şərait yaradır, eyni zamanda mədəni həyatda sənət ocağı kimi fəal iştirak edir.

Üzeyir Hacıbəyli ideyalarının, ənənələrinin aktuallığının qorunub saxlanılması, təhsil sahəsində bu gün həyata keçirilən islahatların onun maarifçilik ənənələrinə uyğun olacağına çox ümid edirik. Düşünürəm ki, onun təməlini qoyduğu pedaqoji və estetik prinsiplər, dövrümüzün çağırışlarına cavab verəcək qüvvədədir.

Təəssüf ki, Üzeyir bəyin yaratdığı və böyük zəhmətlə qurduğu musiqi təhsil sisteminin zaman-zaman zəiflədilməsi cəmiyyətimiz üçün ciddi mədəni itkidir. Bu sistem sadəcə bir tədris mexanizmi deyil, bütöv bir mədəni mühitin, yaradıcı düşüncənin və milli ruhun daşıyıcısıdır. Onun dağıdılması milli mədəniyyətimizin zəifləməsinə, estetik və etik dəyərlərdən uzaqlaşmaya səbəb ola bilər. Bu səbəbdən, Üzeyir bəyin ideyalarına və irsinə sadəcə keçmişin xatirəsi kimi yox, gələcəyin yol xəritəsi kimi baxmalıyıq. Onun maarifçilik ruhunu yaşatmaq, təhsil sistemimizi bu dəyərlər əsasında yenidən formalaşdırmaq milli borcumuzdur.

Bu gün Musiqi Kollecimizin keçdiyi şərəfli yol, əldə etdiyi nailiyyətlər böyük vətənpərvər, dahi Üzeyir bəyin musiqi mədəniyyətimizin və musiqi təhsilimizin inkişafı naminə gördüyü nəhəng işin hədər getmədiyini, musiqi təhsil sisteminin orta təhsil pilləsində mühüm nəticələr əldə olunduğunu sübut edir.

**Problemin aktuallığı**. Məqalə Üzeyir Hacıbəylinin 140 illik yubileyinə həsr edilmişdir.

**Problemin yeniliyi**. Azərbaycanda musiqi təhsilinin formalaşmasında Üzeyir Hacıbəylinin tarixi rolu diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar, musiqi sevənlər üçün faydalı olacaqdır.

## Ədəbiyyat


1. Hacıbəyli Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları. -Bakı: Apostrof, -2010. -176 s.
2. Hacıbəyli Ü.Ə. Seçilmiş əsərləri. -Bakı: Yazıçı, -1985. - 653 s.
3. Hacıbəyli Ü.Ə. Azərbaycan türklərinin musiqisi haqqında: Təqdim edəni, ön söz və lüğətin müəllifi F. Əliyeva. -Bakı: Adiloğlu, -2005. -74 s.


**Redaksiyaya daxil olub**: 29.05.2025